| | | |
|---|---|---|
| **Ümumi məlumat** | **Fənnin adı, kodu və kreditlərin sayı** | AZH150, Azərbaycan tarixi, 6 AKTS |
| | **Department** | Tarix və Arxeologiya Departamenti |
| | **Proqram (bakalavr, magistr)** | Bakalavr |
| | **Tədris semestri** | 2025/2026-ci tədris ilinin Yaz semestri |
| | **Fənni tədris edən müəllim (lər)** | Dr. Nurlan Nəsirov |
| | **E-mail:** | nurlan.nasirov@khazar.org |
| | **Telefon:** | |
| | **Mühazirə otağı/Cədvəl** | |
| | **Məsləhət saatları** | **Müəllimin təyin etdiyi vaxtda** |
| **Prerekvizitlər** | **Yoxdur** | |
| **Tədris dili** | **Azərbaycan dili (K)** | |
| **Fənnin növü (məcburi, seçmə)** | **Məcburi** | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | **Əsas ədəbiyyat**<br>1.**Azərbaycan tarixi (ən qədim zamanlardan – XXI əsrin ilk onilliklərinədək). M.Abdullayevin elmi redaktorluğu ilə. Bakı, Bakı Universiteti. 2016, 2017. 412 s.**<br>2. Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ci illərə qədər. S.S.Əliyarlının redaktəsi ilə. Bakı, Çıraq. 2009, 872 s.<br>3. Azərbaycan tarixi. Ali məktəblər üçün mühazirələr kursu. II hissə (XIX-XXI əsrin əvvəli) A.Ə.Rzayevin ümumi redaktəsi ilə. Bakı: Bakı Universiteti nəşriyyatı, 2010, 544s.<br>4. XX əsr Azərbaycan tarixi. Y.B. Yusifov və T.T. Vəliyevin ümumi redaktəsi ilə. II c., Bakı, 2004.<br>**Əlavə ədəbiyyat**<br>4. Azərbaycan tarixi üzrə qaynaqlar. Tapşırıq və təcrübə məşğələləri üçün müntəxabat. S.S.Əliyarlının redaktəsi ilə. Bakı, Çıraq, 2007, 400 s.<br>5. Aşurbəyli S.B. Şirvanşahlar dövləti .Bakı, Avrasiya press,2006, 416 s.<br>6. Azərbaycan xanlıqlarının Osmanlı dövləti ilə siyasi əlaqələri (XVIII əsrin II yarsı). Bakı: Nurlan, 2002, 131 s.<br>7. Bayramlı Z.,Şabiyev B. Azərbaycan Səfəvi dövləti (XVI-XVII əsrlər) Bakı, Avropa nəşriyyatı, 2016, 344 s.<br>8. Boran Əziz Xocalı soyqırımı: səbəbləri, həyata keçirilmə üsulları və nəticələri, Bakı, Azərnəşr, 2008, 224 s.<br>9. Bünyadov Z. M. Azərbaycan VII-IX əsrlərdə. Bakı, Azərnəşr,1989, 336 s.<br>10. Bünyadov Z.M. Azərbaycan Atabəyləri dövləti (1136-1225-ci illər) Bakı,"Şərq-Qərb, 2007, 312 s.<br>11. Cəfərov C.Azərbaycan kəndi kollektivləşdirmə illərində (1920-ci illərin sonu-30 cu illər) Bakı, Elm, 2008, 300 s.<br>12. Dəlili H.Ə. Azərbaycanın cənub xanlıqları. Bakı, 1979, 142 s.<br>13. Əfəndiyev O. Azərbaycan Səfəvi dövləti. Şərq-Qərb, Bakı, 2007, 344 s.<br>14. Fazili A. Atropatena (e.ə. IV-VII əsrlər). Bakı, Elm, 1992, 216 s. | |

| | |
|---|---|
| | 15. Fərzəlibəyli Ş. Azərbaycan və Osmanlı imperiyası (XV-XVI əsrlər). Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1995, 200 s.<br>16. Həsənov Ə. Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996). Bakı, 1998, 315 s.<br>17. İsgəndərli A. Azərbaycan həqiqətləri (1917-1920), Elm və Təhsil, Bakı,2012, 228 s.<br>18. Qasımov X. Orta əsrlərdə Azərbaycan mədəniyyəti. Bakı,Azpoliqraf, 2008, 448 s.<br>19. Qaşqay. S. Manna dövləti. Bakı.Azərnəşr,1993,107 s.<br>20.Məmmədov Ə. Müstəqil Azərbaycan dövlətinin bərpası və möhkəmləndirilməsi uğrunda mübarizə (80-ci illərin sonu-1997 ci il) Bakı, Elm, 1999, 360 s.<br>21. Məmmədova F. M. Qafqaz Albaniyasının siyasi tarixi və tarixi coğrafiyası. Bakı, 1993, 74 s.<br>22. Moisey Kalankatuklu. Albaniya tarixi. Mxitar Qoş. Albaniya salnaməsi. Bakı, Avrasiya Press, 2006, 296 s.<br>23. Piriyev V.Azərbaycan XIII-XIV əsrlərdə . Bakı: Nurlan, 2003, 458 s. |
| **Kursun vebsaytı** | http://lib.az/book/28/show<br>https://www.preslib.az/#<br>https://www.millikitabxana.az/<br>http://tarixinstitutu.az/books<br>https://history.az/Kitabxana/Kitablar/<br>https://turuz.com/ |
| **Kursun təsviri** | “Azərbaycan tarixi” kursu Azərbaycanın ən qədim çağlarından başlayaraq müasir dövrə qədər baş vermiş əsas tarixi hadisə və prosesləri əhatə edir. Kurs çərçivəsində Azərbaycanın zəngin təbii-coğrafi xüsusiyyətləri, ibtidai icma quruluşu, qədim sivilizasiyanın formalaşdığı mühüm bölgələrdən biri kimi rolu, etnogenez problemləri, qədim və orta əsr dövlətlərinin inkişaf mərhələləri, eləcə də yeni və ən yeni dövr tarixinin əsas istiqamətləri öyrənilir. Bununla yanaşı, ictimai-siyasi proseslər, sosial-iqtisadi dəyişikliklər, mədəni tərəqqi mərhələləri və müstəqillik dövrünün mühüm hadisələri təhlil olunur. Kursda həmçinin göstərilən xronoloji çərçivədə baş vermiş əlamətdar tarixi hadisələr, tanınmış tarixi şəxsiyyətlər və Azərbaycan dövlətçiliyinin formalaşması ilə bağlı məsələlər xüsusi diqqət mərkəzində saxlanılır. |
| **Kursun məqsədləri** | Kursun əsas məqsədi zəngin təbii-coğrafi şəraiti və dövlətçilik tarixi olan Azərbaycanın ən qədim çağlardan başlanaraq müasir dövrə qədər siyasi, sosial-iqtisadi və mədəni tarixinin müxtəlif tərəflərinin müzakirəsi və tarixi həqiqətlərin tələbələr tərəfindən mənimsənilməsidir. Xüsusilə gənc nəslin Azərbaycanın dövlətçilik tarixi, tarixi şəxsiyyətlər, eləcə də, tariximizdə baş vermiş mühüm hadisələrdən məlumatlı olması ilə yanaşı onlarda müxtəlif tarixi problemlərə münasibət bildirmək, tənqidi analitik vərdişlərin aşılanması nəzərdə tutulmuşdur. |
| **Tədrisin** | **Fənnin ümumi tədrisi prosesində tələbələrdə:** |

<table>
<tr><td>(öyrənmənin) nəticələri</td><td colspan="3">
- Azərbaycan tarixi-coğrafiyası və sərhədləri haqqında təsəvvürlər yaranacaq;<br>
- Dünya sivilizasiyaları içərisində Azərbaycanın mövqeyini və əhəmiyyətini anlamaq;<br>
- Azərbaycanda ən qədimdən müasir dövrə qədər baş vermiş əsas tarixi hadisələrin mahiyyətini anlamaq və günümüzlə analogiyalar aparmaq vərdişləri yaranacaq;<br>
- Tələbələrdə milli kimlik, vətənpərvərlik, milli mənəvi dəyərlər haqqında dolğun təsəvvürlər formalaşacaq;<br>
- Azərbaycanın dövlətçilik tarixi, tarixi şəxsiyyətləri və onların Azərbaycan tarixində rolun müəyyən etməyə çalışacaq;<br>
Qazanılmış təcrübə<br>
- Tarixi hadisələrin mahiyyətinin qavranılması və müasir dövrlə müqayisələrin aparılması;<br>
- Tarixi hadisələrə tənqidi və obyektiv yanaşma;<br>
- Azərbaycanın ən qədim dövrdən günümüzə qədər inkişaf yolunu xronoloji ardıcıllıqla təhlil etmək və bəzi tarixi hadisələrdən nəticə çıxarmaq;<br>
- Azərbaycan tarixinin mühüm problemlərinin səbəb və nəticələrini müəyyən etmək;<br>
- Xalqımızın mədəniyyət sahəsində əldə etdiyi nailiyyətləri qiymətləndirmək;<br>
- Böyük tarixi şəxsiyyətlərin cəmiyyətin həyatındakı rolunu müəyyən etmək;<br>
- Azərbaycanın bölgədə və dünya dövlətləri içərisində yeri və rolunu müəyyənləşdirmək.
</td></tr>
<tr><td rowspan="5">Tədris metodları</td><td>Mühazirə</td><td colspan="2">X</td></tr>
<tr><td>Qrup müzakirəsi</td><td colspan="2">X</td></tr>
<tr><td>Praktiki tapşırıqlar</td><td colspan="2">X</td></tr>
<tr><td>Praktiki məsələnin təhlili</td><td colspan="2">X</td></tr>
<tr><td>Digər</td><td colspan="2">X</td></tr>
<tr><td rowspan="7">Qiymətləndirmə</td><td>Komponentləri</td><td>Tarix/son müddət</td><td>Faiz (%), bal</td></tr>
<tr><td>Aralıq imtahanı</td><td>Aprel</td><td>30 bal</td></tr>
<tr><td>Təqdimat</td><td>Final imtahanı öncəsi</td><td>10 bal</td></tr>
<tr><td>Aktivlik</td><td>Final imtahanı öncəsi</td><td>10 bal</td></tr>
<tr><td>Yoxlama yazı işi (quiz)</td><td>Final imtahanı öncəsi</td><td>10 bal</td></tr>
<tr><td>Final imtahanı</td><td>İyun</td><td>40 bal</td></tr>
<tr><td>Yekun</td><td></td><td>100 bal</td></tr>
<tr><td>Qaydalar (Tədris siyasəti və davranış)</td><td colspan="3">Davamiyyət<br>Tələbələrin bütün dərslərdə iştirakı vacibdir. Tələbələr müəyyən səbəblərdən dərslərin buraxılması (xəstəlik, ailə vəziyyəti və s.) haqqında məlumatı fakültə dekanlığına təqdim etməlidirlər. 25%-dən artıq dərs buraxan tələbələr imtahana buraxılmır.</td></tr>
</table>

**Dərsə gecikmə**

Dərsə 10 dəqiqədən artıq gecikən tələbəyə qayıb yazılır. Buna baxmayaraq, tələbə dərsdə iştirak edə bilər.

**Təqdimat**

Təqdimat həm yazılı, həm də şifahi təqdimat olmaqla tələb olunur (mövzular əlavə olunur). Təqdimatlar fərdi müəllimin təyin etdiyi gündə (silabusda əks olunacaq və ilk iki dərsdə tələbələrə elan ediləcək) keçirilir və həmin gün təqdimatçı üçün son tarixdir

1. Prezentasiya əlyazma formasında yazılmalı
2. Mütləq əyani vəsait kimi slayd şou göstərilməlidir
3. İş yazılarkən mənbələrə istinad edilməlidir. İstinad qaydaları müəllim tərəfindən təqdim olunacaqdır.
4. Sonda istifadə olunmuş ədəbiyyatın siyahısı əlavə edilməlidir.

**Qeyd:** Plagiat halları qəti qadağandır! Tələbələr təqdimatı yerinə yetirərkən plagiarizmə yol verməməli, əldə etdikləri məlumatların mənbələrinə istinad etməli və istinadları göstərməlidir. Tələbələrin qiymətləndirmə üçün müəllimə təqdim etdiyi təqdimatda 25% və daha artıq Plagiarizm halları (müvafiq istinadların mənbəyinin göstərilməsi halları istisna olmaqla) aşkarlandığı zaman iş sıfırlanır.

**Yoxlama işi:** Kurs boyu bir yoxlama yazı keçirilməsi nəzərdə tutulur. Yoxlama işi 10 bal ilə qiymətləndirilir. Müəllimə və dekanlığa qabaqcadan məlumat verilən səbəblərdən yoxlama işində iştirak etməyən tələbə yoxlama işini növbəti həftədə yaza bilər.

**Aktivlik:** Bütün dərslərdə verilmiş dərs materiallarının öyrənilməsi, hər dərsdə müvafiq mövzularla bağlı disskusiyalarda aktiv iştirak etmək (münasibət bildirmk, sual vermək, tənqidi yanaşmaq və s), müəllim tərəfindən verilən sualları ətraflı və tutarlı arqumentlərlə cavablandırmaq kursun sonunda fərdi şəkildə aktivlik balı ilə qiymətləndiriləcəkdir.

**İmtahanlar**

Aralıq və yekun imtahan mövzuları tələbələrə imtahandan öncə verilir. Aralıq imtahanının sualları yekun imtahanında təkrarlanmırlar.

**İmtahan qaydaları**

Aralıq və yekun imtahanları işində tələbə tərəfindən və bir-birindən köçürmə halları qadağandır. Bu qaydaya riayət etməyən tələbələrin imtahan işi ləğv olunur və tələbənin qiyməti sıfırlanır.

**Fənni bitirmək qaydası**

Universitetin qaydalarına müvafiq olaraq kursu bitirmək üçün ümumi müvəffəqiyyət faizi 60% və yuxarı hesab edilir. Kəsiri olan tələbə bu fənni növbəti semestr və ya növbəti il təkrarən götürə bilər.

**Tələbələrin davranış qaydaları**

Dərs zamanı dərs prosesini və etik qaydaları pozmaq qadağandır. Həmçinin tələbələr arasında icazəsiz müzakirələr və mobil telefonlardan istifadə qadağandır.

| Cədvəl (dəyişdirilə bilər) | | | |
|---|---|---|---|
| **Həftə** | **Tarix** | **Fənnin mövzuları** | **Dərslik / Tapşırıqlar** |
| 1 | _,_, *26* | **Mövzu № 1. Azərbaycan ərazisində ibtidai icma cəmiyyəti. İlkin dövlət qurumları.**<br>Azərbaycan ərazisində ilkin insan düşərgələri. İlkin daş alətlər. Ulu icma. İstehlak təsərrüfatı. Azərbaycan ərazisində ən qədim insan izləri. Azix adamı. Qəbilə icmasının meydana gəlməsi. Orta daş dövrü (Mezolit.) Ox və kamanın kəşfi. Qobustan yaşayış məskəni və qayaüstü rəsmləri. İbtidai əkinçilik və heyvandarlıq vərdişləri. « Neolit inqilabı ».İstehsal təsərrüfatının yaranması: Əkinçilik, maldarlıq, dulusçuluq və ev peşələri (toxuculuq, tikinti işi və s.). Azərbaycanda metal alətlərdən istifadə. Erkən Tunc dövrü. Təsərrüfatın yeni sahələri. Orta Tunc dövrü. Sənətkarlığın inkişafı. Son Tunc- Erkən Dəmir dövrü. İbtidai icma quruluşunun dağılması. Azərbaycan ərazisində yaşayan ən qədim tayfalar. Lullubi,kuti, su və turukkilər. Lullubi və kuti dövlət qurumları və onların yüksəliş dövrü. | 1, s. 5-10; 2, s. 8-33; |
| | _,_, *26* | **Mövzu № 2. Azərbaycan ərazisində qədim dövlətlər.**<br>Manna haqqında ilk məlumatlar. Manna dövlətinin yaranması. E.ə. VIII əsrin II yarısında Manna dövlətinin güclənməsi. İranzu Xarici siyasətin əsas istiqamətləri. Assuriya ilə ittifaq və onun əhəmiyyəti. Assuriya çarı II Sarqonun Mannaya yürüşləri. Urartu ilə münasibətlər. Ahşerinin siyasəti. Assuriya ilə ittifaqdan imtina və onun nəticələri. Əhalisi. Təsərrüfatı. Dövlət quruluşu və idarə sistemi . Mannanın mədəniyyəti. Dini inanclar. Həsənli və Ziviyə tapıntıları. Mannanın zəifləməsi və süqutu. Əhəməni imperatorluğunun çökməsi. Azərbaycan Makedoniyalı İsgəndər-Atropat münasibətləri. Atropaten dövlətinin yaranması. Atropatın çevik siyasəti. Atropaten dövlətinin ərazisi, əhalisi. Təsərrüfat həyatı: əkinçilik ,maldarlıq, sənətkarlıq. Şəhərlər. Ticarət. Atropatenin xarici siyaseti. Atropatenanın Selevkilər,Parfiya və Roma ilə qarşılıqlı münasibətləri. Atropaten dövlətinin Azərbaycan tarixində yeri. Mədəniyyət. Əhalinin dini inacları. Zərdüştlük.<br>Antik Alban dövlətinin yaranması. Antik müəlliflər (Strabon, Plini, Ptolomey) Albaniyanın əhalisi, ərazisi və siyasi sərhədləri haqqında. Albaniya əhalisinin etnik tərkibi. Təsərrüfat. Şəhərlər. Ticarət. İctimai qurluş. Albaniyanın siyasi tarixinin əsas məsələləri: Roma işğalçılarına qarşı mübarizə. Albanların basqınları və onlarla mübarizə. Mədəniyyət | 1, s. 11-29; 2, s. 55-109; 14; 19 |
| 2 | _,_, *26* | **Mövzu № 3. Azərbaycan III - VIII əsrlərdə** | 1, s. 31-40; 2, s. |

| | | | |
|---|---|---|---|
| | | Azərbaycan III-VII əsirlərdə. Albaniyanın təsərrüfat həyatı. Yeni – feodal münasibətlərinin təşəkkülü. Feodal və kəndli zümrələrinin tərkibi. Torpaq mülkiyyəti formaları dastakert və xostak. Albaniyanın ərazisi və inzibati bölgüsü. Xristianlığın yayılması. Aquen kilsə məclisi. Atropaten ərazisi Sasani imperiyasının tərkibində. Atropatenada ictimai münasibətlər.<br>Azərbaycanda Sasanilərə qarşı hərəkat və üsyanlar. Azərbaycanın siyasi tarixinin əsas məsələləri. Albaniya Arşakilər sülaləsinin hakimiyyəti dövründə. Böyük mərzbanlıq dövrü.<br>Mehranilər sülaləsinin hakimiyyətə gəlməsi. Girdiman dövləti. Aqvan hökmdarı Cavanşirin daxili və xarici siyasəti. III- VII əsirlərdə Azərbaycan mədəniyyəti. Ərəb yürüşləri. Sasani-ərəb savaşları və Azərbaycan. Azərbaycanın ərəblər tərəfindən işğal edilməsi. Azərbaycan xilafətin tərkibində. Alban knyazlığının aradan götürülməsi. Ərəblərin inzibati-idarə sistemi. Əmirliklər. Köçürmə siyasəti: məqsədi və nəticələri. İslam dininin yayılması və əhəmiyyəti. Xilafətin torpaq siyasəti: Torpaq sahibliyinin formaları: divan, mülk, vəqf, icma və onun növləri. Vergi sistemi, onun inkişaf mərhələləri. Xərac, cizyə, xüms və zəkat. Xilafət dövründə Azərbaycan təsərrüfat həyatı və mədəniyyəti. Azərbaycanda ərəb ağalığına qarşı üsyanların səbəbləri.Xilafətə qarşı xalq azadlıq hərəkatının başlanması. Beyləqanda Müsafinin başçılığı ilə üsyan “Xürrəmi” istilahı. Xürrəmilik təliminin mahiyyəti .Xürrəmilik hərəkatı. Babəkin başçılığı altında azadlıq müharibəsinin başlanması, gedişi və nəticələri. Azadlıq savaşının məğlub olma səbəbləri və tarixi əhəmiyyəti. Azərbaycan xalqının yaranışı məsələsi. Xalqın yaranışı prosesinin başlıcamərhələləri. Uzaq keçmişdə Azərbaycanda yaşayan türk toplumları. İlkin orta əsrlərdə Azərbaycan türk etnosunun yayılıb güclənməsi. Azərbaycan xalqının təşəkkülü prosesində islam dininin rolu. Yaranışda Azərbaycan türk dilinin yeri və rolu. Azərbaycan xalqının yaranma prosesinin başa çatması. | 110-129; 21 |
| | ***_,_, 26*** | **Mövzu № 4. Azərbaycan IX-XII əsrlədə**<br>Ərəb xilafətinin dağılması və Azərbaycanda müstəqil dövlətlərin yaranması. Siyasi oyanış prosesi. Şirvanşahlar dövləti. Sacilər dövləti. Salarilər dövləti. Azərbaycan torpaqlarının vahid dövlətdə birləşməsi və onun əhəmiyyəti. Rəvvadilər və Şəddadilər dövlətləri. Rusların Azərbaycana yürüşləri və onların nəticələri. Bərdə faciəsi. Səlcuqlar və Azərbaycan. Azərbaycan xalqının Cənubi Qafqazada əsas etnosa çevrilməsi.<br>Azərbaycan Eldənizlər (Atabəylər) dövlətinin yaranması. Şəmsəddin Eldənizin “Böyük atabəy” titulu alması və İraq Səlcuq sultanlığının atabəylər sülaləsinin idarəçiliyinə keçməsi. | 1, s. 41-51; 2, s. 130-155; 9 |

| | | | |
|---|---|---|---|
| | | Məhəmməd Cahan Pəhləvanın hakimiyyəti dövründə mərkəzi hakimiyyətin güclənməsi. Qızıl Arslanın “sultan” titulu qazanması. Atabəylər dövlətinin xarici siyasəti. Ölkənin sosial-iqtisadi inkişafı. Sənətkarlıq və ticarət. Şəhərlər. Şirvanşahlar dövləti XI – XIII əsrin əvvələrində. Azərbaycan intibah mədəniyyəti. Məktəb və mədrəsələr.<br>Elmin inkişafı. Fəridəddin Şirvani, Xətib Təbrizi və b. Memarlıq. Əcəmi Naxçıvani, Məsud Davudoğlu. İncəsənət. İntibah mədəniyyətinin əhəmiyyəti. Azərbaycanın iqtisadi həyatı. Kənd təsərrüfatı. Sənətkarlıq və ticarətin inkişafı.. | |
| 3 | *_,_, 26* | **Mövzu № 5. Azərbaycan Xalqının Etnogenezi**<br>Azərbaycan xalqın yaranışı prosesinin başlıca mərhələləri. Uzaq keçmişdə Azərbaycanda yaşayan türk toplumları. İlkin orta əsrlərdə Azərbaycan türk etnosunun yayılıb güclənməsi. Azərbaycan xalqının təşəkkülü prosesində islam dininin rolu. Yaranışda Azərbaycan türk dilinin yeri və rolu. Azərbaycan xalqının yaranması. | 1, s. 52-62; 2, s. 156-205; |
| 4 | *_,_, 26* | **Mövzu № 6. Azərbaycan XIII– XIV əsrlərdə.**<br>Moğolların Azərbaycana yürüşləri. Təbriz, Gəncə və Dərbəndin müdafiəsi. Dinc əhalinin qırılması. Moğolların Azərbaycanda torpaq, vergi və örüş siyasəti. Hülakü (İlxanilər) dövlətinin yaranması və Azərbaycanın bu dövlətinin mərkəzinə çevrilməsi. Hülakülər dövləti Qazan xanın hakimiyyəti dövründə. Qazan xanın əskəri iqta islahatı. Vergi, məhkəmə, rabitə, ticarət və b. islahatları və nəticələri. İlxanlılar dövlətinin tənəzzülü və süqutu. Teymuri hökmdarı Əmir Teymur və Qızıl Orda xanı Toxtamışın Azərbaycan uğrundə mübarizəsi və bu ərazilərə yürüşləri. Şirvanda Dərbəndilər sülaləsinin hakimiyyətə gəlməsi. Şirvanşah I İbrahim Dərbəndinin daxili və xarici siyasəti. XIII-XV əsrlərdə Azərbaycan mədəniyyəti. | 1, s. 63-71; 2, s. 206-227; 10; 18 |
| | *_,_, 26* | **Mövzu № 7. Azərbaycan Qaraqoyunlu (Baharlı) sülaləsinin hakimiyyəti dövründə**. Mərkəzi Van olan Qaraqoyunlu (Baharlı) hakimliyinin meydana çıxması. Teymura qarşı Baharlı (Qaraqoyunlu) – Cəlairi birliyinin yaranması. Teymurun ölümü və Azərbaycanda hakimiyyət uğrunda mübarizənin yeni mərhələsi. Qara Yusif. Baharlı (Qaraqoyunlu) sülaləsinin hakimiyyətə gəlməsi. Daxili və xarici siyasəti. Cahanşah Dövlətin genişlənərək inperiyaya çevrilməsi . Şirvanşahlıq və Teymurilərlə münasibətləri. Daxili çəkişmələr. | 1, s. 97-108; 2, s. 271-299; 5; 22 |
| 5 | *_,_, 26* | **Mövzu № 8. Ağqoyunlu (Bayandurlu) sülalələrinin hakimiyyəti dövründə.**<br>Muş döyüşü. Azərbaycanda Baharlı sülaləsinin hakimiyyətinə son qoyulması. Diyarbəkirdə Ağqoyunlu (Bayandurlu) hakimliyi. | 1, s. 113-123; 2, s. 312-332; 5; 15 |

| | | | |
|---|---|---|---|
| | | Azərbaycanda Bayandurlu sülaləsinin hakimiyyətə gəlməsi. Daxili siyasəti. Uzun Həsənin Qanunnamə Xarici siyasətin başlıca istiqamətləri. Uzun həsənin Avropa siyasəti. Venetsiya ilə əlaqələr. Osmanlı dövləti ilə müharibələr və onların Avropanın xristian dövlətlərinin xeyrinə olması. Malatya və Otluqbeli döyüşləri. Azərbaycan Sultan Yaqubun dövründə. XV əsrin sonlarında hakimiyyət uğrunda çəkişmələr. Əbhər sazişi ilə Bayandurlu səltənətinin iki yerə parçalanması. XV əsirdə Azərbaycanda inzibati-idarə sistemi, sosial-iqtisadi həyat və mədəniyyət. | |
| | ***_,_, 26*** | **Mövzu № 9. Azərbaycanda Səfəvilər sülaləsinin hakimiyyəti dövründə..**<br>Səfəvi şeyxlərinin Ərdəbil hakimliyi. Qızılbaşlıq ideologiyası. Mərkəzləşmiş Azərbaycan dövlətinin yaranmasının zəruriliyi. Ərzincan müşavirəsi. Qızılbaşların Şirvana yürüşü. Cabanı döyüşü. Bakının alınması. Bayandurlularla Şərur döyüşü. Qızılbaşların Təbrizə daxil olması.<br>İsmayılın şah elan edilməsi. Səfəvi dövlətinin yaranması. Şah İsmayılın daxili və xarici siyasəti.<br>Azərbaycan Səfəvi dövlətinin imperiyaya çevrilməsi. Səfəvi-Osmanlı müharibələrinin başlanması. Çaldıran döyüşü və onun nəticələri. Şah I Təhmasibin daxili və xarici siyasəti. 1538-ci ildə Şirvanın tam tabe edilməsi, Şirvanşahların hakimiyyətinə son qoyulması. 1551-ci ildə Şəki hakimliyinin ləğv edilməsi ilə<br>Azərbaycan torpaqlarının vahid dövlətdə birləşdirilməsinin başa çatması. Səfəvi - Osmanlı müharibəsi (1534-1555). Amasya sülhü.<br>Səfəvilər dövləti I Şah Təhmasibin varislərinin dövründə (II İsmayıl, Məhəmməd Xudabəndə). Səfəvi - Osmanlı müharibələrinin ikinci mərhələsi. 1590-cı il İstanbul sülhü. Azərbaycan XVI yüzilliyin sonu – XVII yüzillikdə. I Şah Abbasın hakimiyyəti (1587- 1629).<br>I Şah Abbas tərəfindən mərkəzi dövlət hakimiyyətinin gücləndirilməsi tədbirləri. Şah Abbasın islahatları. Səfəvi ordusunun formalaşdırılması. Yeni Səfəvi-Osmanlı(1603-1639). Azərbaycan torpaqlarının Osmanlıdan geri alınması. 1639-cu il Qəsri-Şirin sülhü Azərbaycan XVII əsrin II yarısında.<br>Səfəvilərin dövlət qurluşu: Qızılbaş türk soylarının və Azərbaycan türk dilinin dövlət idarəetmə sistemində yeri və rolu.<br>Səfəvi ordusu: Qızılbaş qoşununun öz üstün mövqeyini qoruyub saxlaması. Yeni qoşun növlərinin yaradılması:qulamlar, tüfəngçilər və topçular.<br>Kənd təsərrüfatı. Torpaq sahibliyi formaları: divan, xassə, vəqf, | 1, s. 124-129; 2, s. 371-408; 7; 13 |

| | | | |
|---|---|---|---|
| | | mülk və s. Şərti torpaq sahibliyi olan tiyulun meydana çıxması. Sənətkarlıq sahələri. Şəhərlər, daxili və xarici ticarət.<br>Azərbaycan türk dilinin inkişafı və dövlət dili statusu qazanması. Səfəvi hökümdarlarının mədəniyyətin inkişafına qayğısı. Şah İsmayıl Xətai. Maarif və məktəb. Təbriz mədrəsələri.<br>Dərsliklər. Mədrəsələr. Elm: təbabət, astronomiya, riyaziyyat, fəlsəfə. Tarix elmi. Həsən bəy Rumlu, İsgəndər bəy Münşi və b. Ədəbiyyatın inkişafı. Təbriz minüatür məktəbi. Sultan Məhəmməd, Kəmaləddin Behzad və b. Memarlıq: Şeyx Cüneyd türbəsi, Gəncədə Şah Abbas məscidi və b. Musiqi: Azərbaycanın və Şərqin ilk operası. Kitabxana işi. Xəttatlıq. | |
| 6 | ***_,_, 26*** | **Mövzu № 10. Azərbaycan XVIII əsrin I Yarısı. Nadir şah Əfşar**<br>Səfəvi dövlətinin zəifləməsinin əsas səbəbləri. I Pyotrun Azərbaycana işğalçılıq yürüşləri. Peterburq müqaviləsi. Cənubi Qafqaz uğrunda Rusiya – Osmanlı qarşıdurması. 1724-cü il Hacı Davudun başçılığı ilə Şirvanın yarımmüstəqil xanlığa çevrilməsi. Nadir xanın Azərbaycan torpaqlarını geri almaq uğrunda mübarizəsi. Kirmanşah, Rəşit, Bağdad və Gəncə müqavilələrinin bağlanması nəticəsində rusların Xəzərsahili vilayətlərdən, osmanlıların qalan Azərbaycan torpaqlarından çıxarılması. Nadirin şah “seçki” si. Azərbaycanda Nadirin hakimiyyətinə qarşı üsyanlar. | 1, s. 146-157; 2, s. 472-495 |
| | ***_,_, 26*** | **Yoxlama işi (Quiz) 1**<br>Əsasən 1-10-cu mövzular əsasında tərtib olunacaqdır | |
| 7 | ***_,_, 26*** | **Mövzu № 11. Azərbaycan xanlıqlar dövründə**<br>Xanlıqların ortaya çıxışı. Xanlıqların daxili siyasəti, sosial-iqtisadi həyatı. İnzibati idarəetmə sistemi. Azərbaycan torpaqlarını vahid dövlətdə birləşdirmək cəhdləri: Urmiyalı Fətəli xan və Qubalı Fətəli xan. Xanlıqların xarici siyasətinin əsas istiqamətləri. Xanlıqlararası münasibətlər. Xanlıqların İran, Osmanlı imperiyası, Rusiya və Gürcüstanla münasibətləri. XVIII əsrin sonlarında Azərbaycanın şimal torpaqlarına Ağa Məhəmməd Qacarın və Zubovun yürüşləri. XVIII əsr Azərbaycan mədəniyyəti. Maarif. Elm. Ədəbiyyat. İncəsənət. | 1, s. 158-177; 2, s. 508-531; 12 |
| | ***_,_, 26*** | **Mövzu № 12. Şimali Azərbaycanın Rusiya tərəfindən işğalı. Gülüstan və Türkmənçay müqavilələri. XIX əsrin 30-cu illərində rus müstəmləkə əsarətinə qarşı üsyanlar.**<br>Azərbaycanın bölüşdürülməsi: Şimali Azərbaycanın Rusiya tərəfindən işğal olunmasının birinci mərhələsi. Qazax Şəmşəddil və Borçalı sultanlıqlarının işğalı. Rusiya-Azərbaycan müharibəsi. Car-Balakənin və Gəncə xanlığının işğal olunması. Cavad xan. | 1, s. 178-193; 3, s. 5-80; |

| | | | |
|---|---|---|---|
| | | 1805-ci il Kürəkçay müqaviləsi: Qarabağ, Şəki və Şirvan xanlıqlarının ələ keçirilməsi. 1804-1813-cü illər Rusiya-İran müharibəsi. Gülüstan müqaviləsi.1826-1828-ci illər Rusiya İran müharibəsi. Naxçıvan və İrəvan xanlıqlarının rus qoşunları tərəfindən tutulması.<br>Türkmənçay müqaviləsi. Şimali Azərbaycanın Rusiya tərəfindən işğalının başa çatması. Şimali Azərbaycanda çarizmin müstəmləkəçilik siyasəti. Hərbi işğal rejimi . Komendant üsul-idarəsi.<br>Çarizmin köçürmə siyasəti . Rusların və almanların köçürülməsi. İran və Türkiyədən ermənilərin Azərbaycan torpaqlarına kütləvi sürətdə köçürülməsi. Çarizmin dini ayrı-seçkilik siyasəti.<br>Müstəmləkə əsarətinə qarşı azadlıq mübarizəsi. Üsyan və çıxışların əsas səbəbləri. 1830-cu il Car- Balakən , 1831-ci il Lənkəran, 1837-ci il Quba və 1838-ci il Şəki üsyanları. Üsyanların əhəmiyyəti və nəticələri. 40-cı illər islahatının hazırlıq mərhələsi: Komendant üsul–idarəsinin yarasızlığının mərkəzi hökumət tərəfindən dərk olunması. | |
| **Aralıq İmtahanı** | | | |
| 8 | ***_,_, 26*** | **Mövzu № 13. XIX əsrin 40-70-ci illərində Şimali Azərbaycanda həyata keçirilən islahatları. XIX əsrin II yarısında mədəni inkişaf.**<br>Cənubi Qafqazda inzibati məhkəmə sistemində islahat keçirilməsi haqqında 10 aprel 1840-cı il qanunu. Komendant üsul-idarəsinin ləğvi. Şimali Azərbaycan torpaqlarının Xəzər vilayəti və Gürcüstan–İmeretiya quberniyasına daxil edilməsi. İnzibati dəyişikliklər zamanı Azərbaycan xalqının milli və etnik xüsusiyyətlərinin nəzərə alınması. Cənubi Qafqazda , o cümlədən Şimali Azərbaycanın idarəçiliyində sərt mərkəzləşmə: 1844-cü ildə Qafqaz canişinliyinin yaradılması. 1846-cı ildə yeni inzibati bölgünün həyata keçirilməsi. 1849-cu ildə İrəvan quberniyasının yaradılması. 40-cı illərin əvvəllərində Azərbaycan bəy və ağalarının torpaqlarının müsadirəsi tədbirləri və onun nəticələri. Bəy və ağaların torpaq hüquqları haqqında 1846-cı il Ali reskripti (fərmanı) ilə Azərbaycan zadəganlarının mülkiyyət hüquqlarının hökumət tərəfindən rəsmən tanınması. Çarizmin milli və dini ayrı-seçkilik siyasətinin nəticəsi olaraq Azərbaycan zadəganlarına kütləvi şəkildə diyarın idarə edilməsi orqanlarında vəzifə tutmaq hüququnun verilməməsi. Azərbaycan zadəganları ilə sahibkar kəndliləri arasında asılılıq münasibətlərini tənzimləyən 1847-ci il Kəndli Əsasnamələrinin verilməsi.. Azərbaycanda kapitalist münasibətlərinin inkişafı. XIX əsrin 60-70-ci illərdə burjua islahatları.14 may 1870-ci il kəndli islahatı: həyata keçirilməsi və | 1, s. 187-193, 212-218; 3, s. 81-151 |

| | | | |
|---|---|---|---|
| | | nəticələri. Məhkəmə islahatı və onun xüsusiyyətləri. Şəhər islahatı.. Bakıda və Yelizavetpolda (Gəncədə) yerli özünü idarə orqanlarının yaradılması. İnzibati dəyişikliklər. XIX əsrin II yarısında iqtisadi inkişaf. Neft sənayesi: Əlvan metallurgiyanın inkişafı. "Simens qardaşları" şirkəti. Nəqliyyat Kənd təsərrüfatında kapitalist münasibətlərin inkişafı. Ticarət. Azərbaycan milli burjuaziyasının formalaşması: H.Z. Tağıyev, M. Nağıyev, Ş. Əsədullayev və b. Azərbaycan millətinin təşəkkülü. Maarifin inkişafı. Yeni tipli məktəblərin yaranması. Ana dili məktəblərin yaranması uğrunda mübarizə:Üsuli-cədid məktəbi. Elm.. Möhsün bəy Xanlarov, Mirzə Kazımbəy. Ədəbiyyat: M.F.Axundov, Q.B. Zakir, S.Ə. Şirvani. Milli mətbuatın yaranması və inkişafı: H.B. Zərdabi. "Əkinçi " qəzeti. Milli ziyalılar. Milli teatrın yaradılması. Memarlıq. Təsviri incəsənət və musiqi. | |
| | *_,_, 26* | **Mövzu № 14. Azərbaycan XX əsrin əvvəllərində.**<br>XX əsrin əvvəllərində iqtisadi inkişaf. Neft sənayesi. Digər sənaye sahələri. Nəqliyyat. Kənd təsərrüfatı. Ticarət köçürmə siyasəti. 1912-1913-cü illərin aqrar qanunları. Sosial vəziyyət.<br>Kəsbkarlıq. 1904-cü il dekabr ümumi tətil hərəkatları. Mazut konstitusiyası Cənubi Azərbaycan 1905-1907- ci illər inqilabı dövründə. Çarizmin Azərbaycanda milli qırğın siyasəti. Azərbaycanlı deputatların dövlət dumalarında fəaliyyəti. XX əsrin əvvəllərində Azərbaycanda siyasi təşkilatların və partiyaların yaranması. Müsavat, Difai və digər partiyaları. Azərbaycan I Dünya müharibəsində iştirak edən dövlətlərin planlarında. Azərbaycanlı hərbiçilər müharibə cəbhələrində. Müharibənin Azərbaycanlı iqtisadiyyatına və əhalinin güzəranına təsiri. Mədəniyyət. İlk milli opera. İlk Azərbaycan filmi. Ədəbiyyat. Mətbuat.<br>XX əsrin əvvəllərində Cənubi Azərbaycanda sosial-iqtisadi vəziyyət. Ölkənin İngiltərə və Rusiyadan asılılığın güclənməsi.. Kəsbkarlıq. Əhalinin sosial narazılığın artması. Cənubi Azərbaycan 1905-1911-ci illər İran İnqilabının mərkəzi kimi. Səttarxanın başçılığı ilə azadlıq hərəkatı və onun əhəmiyyəti. Cənubi Azərbaycan 1917-1918-ci illərdə. Xoy, Səlmas, Urmiyada ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilən qırğınlar. Osmanlı dövlətinin köməyə gəlməsi. Ş.M. Xiyabanının başçılığı altında milli azadlıq hərəkatı. 1920-ci il Təbriz üsyanı. Milli hökumətin təşkili və fəaliyyəti. Hərəkatın yatırılması və tarixi əhəmiyyəti. | 1, s. 219-242; 3, s. 152-177; 17 |
| 9 | *_,_, 26* | **Mövzu № 15. Azərbaycan Xalq Cümhuriyyəti**<br>Azərbaycan Fevral inqilabından sonrakı dövürdə. Xüsusi | 1, s. 260-278; 3, s . 248-277 |

| | | | |
|---|---|---|---|
| | | Zaqafqaziya Komitəsi. İctimai Təşkilatların İcariyyə Komitəsinin fəaliyyəti. Zaqafqaziya Komisarlığı və Seymi. Bakı Sovetində rəhbərliyin daşnak-bolşevik güruhunun əlinə keçməsi və onun azərabaycanlıları məhv etmək siyasəti. Azərbaycan türklərinə qarşı 1918-ci il mart soyqırımı. 28 may 1918-ci il "İstiqlaliyyət bəyannaməsi" və Azərbaycan dövlətçiliyinin bərpası. Bakıda sovet hakimiyyətinin süqutu.<br>"Sentrokaspi diktaturası" Bakının azad edilməsi. Yeni dövlət quruculuğu. Azərbaycan Parlamentinin açlışı və fəaliyyəti. Azərbaycan Cümhuriyyəti hökümətinin sosial – iqtisadi və mədəaniyyət sahəsində gördüyü tədbirlər. Bakı Dövlət Univeristetinin açılması. Ordu quruculuğu. Ölkə daxilində ermənilərin fitnəkarlığına son qoyulması. Azərbaycan Cumhuriyyətinin xarici siyasəti: Türkiyə ilə Batum müqaviləsinin bağlanması və onun əhəmiyyəti. Gürcüstan Resbubilkası ilə hərbi ittifaq yaradılması. Azərbaycan Cümhuriyyətinin<br>Paris sülh konfransında tanınması. Bolşevik Rusiyasının hərbi müdaxiləsi, Azərbaycan Cümhuriyyətinin süquta uğraması və onun səbəbləri. AC-nin tarixi yeri və əhəmiyyəti. | |
| | | **Yoxlama işi** | |
| 10 | *_'_, 26* | **Mövzu № 16. Azərbaycanda sovet rejiminin qurulması və ona qarşı mübarizə.**<br>Azərbaycanda sovet rejiminin qurulması. Sovet işğal rejiminə qarşı müqavimət hərəkatı və üsyanlar. Azərbaycanda sovet idarə orqanlarının yaradılması və fəaliyyəti. Azərbaycanın formal müstəqilliyinin ləğvi. Azərbaycan SSR-in ZSFSR-ə qatılması. Azərbaycanda sovet milli siyasəti və onun mahiyyəti. Azərbaycanın ərazi ibütövlüyünə yeni qəsdlər. DQMV-nin və Naxçıvan MSSR-in yaradılması.Azərbaycan SSR-də yeni iqtisadi siyasətin həyata keçirilməsi və onun xüsusiyyətləri.<br>Sənayeləşdirmə xəttinin həyata keçirilməsi və onun nəticələri. Elliklə və məcburi kollektivləşdirmə xətti və onun yekunları. İnzibati amirlik sisteminin bərpa edilməsi.<br>Azərbaycanda kütləvi repressiyaların həyata keçirilməsi və onun ağır nəticələri. XX əsrin 20-30- cu illərində sovet hakimiyyətinin mədəni quruculuq sahəsində tədbirləri. Yeni təhsil sisteminin formalaşdrılması. Azərbaycanda əlifba islahatlarının keçirilməsi. Ali təhsilin inkişafı və milli kadrların hazırlanması. Elm. Elmi tədqiqat müəssisələrinin yaradılması. Ədəbiyyat və incəsənət. Mədəniyyət xadimlərinə kütləvi divan tutulması. | 1, s. 279-309; 3, s. 279-304; 11 |
| | *_'_, 26* | **Mövzu № 17. Azərbaycan II Dünya Müharibəsi illərində**<br>Azərbaycan SSR müharibə edən dövlətlərin planlarında. | 1, s. 310-318; 3, s. 325-367 |

| | | | |
|---|---|---|---|
| | | Azərbaycan iqtisadiyyatının müharibənin tələbatına uyğun olaraq yenidən qurulması. Bakı Sovet ordusunun yanacaq bazası və cəbbəxanası kimi. Bakı neftinin faşizm üzərindəki qələbədə rolu. Azərbaycanlıların döyüş cəbhələrində, partizan və Avropada antifaşist hərəkatında iştirakı. Milli legionların təşkili. Müharibə illərində Azərbaycan mədəniyyəti. | |
| 11 | *_,_, 26* | **Mövzu № 18. Azərbaycan SSR 1945-1960-cı illərdə..** Cənubi Azərbaycan müharibə edən dövlətlərin planlarında. SSRİ və onun müttəfiqlərinin İrana müdaxiləsi. Cənubi Azərbaycanda demokratik hərəkatın başlanması. “ 21 Azər ” hərəkatının qələbəsi. S.C. Pişəvərinin başçılığı ilə milli hökumətin qurulması və fəaliyyəti. “ Dil haqqında ”qanunun verilməsi. Torpaq islahatı. Əmək haqqında qanun. Milli hökumətin mədəniyyət sahəsindəki tədbirləri. Təbriz Universitetinin açılması. Təbriz Flarmoniyası. Şimali Azərbaycandan ziyalıların köməyi. SSRİ, ABŞ və İngiltərənin “ Cənubi Azərbaycan” məsələsindəki mövqeyi. Sovet qoşunlarının Cənubi Azərbaycandan çıxarılması. Milli hökumətin süqutu. Hərəkatın yatırılması. Tarixi əhəmiyyəti və nəticələri.<br>Dinc quruculuğa keçid. Yeni sənaye sahələrinin və mərkəzlərinin yaranması. Kənd təsərrüfatına vəziyyət. 1948-1953-cü illərdə Azərbaycan əhalisinin Qərbi Azərbaycandan kütləvi surətdə sürgün edilməsi (deportasiya). 50-ci illərin ortaları-60-cı illərin təsərrüfat islahatları və onların nəticələri. 1945-1960-cı illərdə Azərbaycanın mədəniyyəti. | 1, s. 327-336; 3, s. 368-417 |
| | *_,_, 26* | **Mövzu № 19. Azərbaycan SSR XX əsrin 70-80-ci illərində.** Respublikada Heydər Əliyevin hakimiyyətə gəlməsi. İqtisadiyyata rəhbərliyin gücləndirilməsi. Azərbaycanda sənaye və kənd təsərrüfatının inkişafı. Yeni sənaye müəssisələrinin və sosial-məişət obyektlərinin tikilməsi. Kadr hazırlığı. Elimi – texniki tərəqqi. Əhalinin sosial vəziyyəti.<br>Mədəniyyət. Yenidənqurma siyasəti və Azərbaycan . Dağlıq Qarabağ probleminin ortaya gətirilməsi. Azərbaycanda xalq hərəkatının başlaması. Azərbaycan Xalq Cəbhəsi | 1, s. 336-342; 3, s. 418-461 |
| 12 | *_,_, 26* | **Mövzu № 20. Azərbaycan Respublikası (1991-2024-cü illər).** SSRİ-nin dağılması ərəfəsində Azərbaycanda ictimai- siyasi vəziyyət: 1990-cı ildə Bakıda Qanlı yanvar faciəsi və onun hüquqi-siyasi qiyməti Milli azadlıq hərəkatının genişlənməsi.<br>Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsi (18 oktyabr 1991). Milli dövlət quruculuğu.<br>Bazar iqtisadiyyatına keçid və dünya iqtisadiyyatına inteqrasiya. Azərbaycanın BMT-yə və digər beynəlxalq təşkilatlara qəbul olunması. Ermənistan –Azərbaycan müharibəsi. Xocalı soyqırımı XX yüzilliyin ən dəhşətli faciəsidir. 1993-cü ildə Heydər | 1, s. 343-389; 3, s. 462-524; 8; 16; 20 |

| | | | |
|---|---|---|---|
| | | Əliyevin yenidən hakimiyyətə gəlməsi ilə Azərbaycanın siyasi həyatında yeni mərhələnin başlanması. H. Əliyevin başçılığı ilə Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanılması uğrunda mübarizə. Müstəqil Azərbaycanın 1993-2003-cü illərdə sosial-iqtisadi və siyasi vəziyyəti:Əsrin müqaviləsi və neft strategiyası. Yeni parlamentin formalaşması. 1995-ci il Azərbaycan Konstitusiyası. İslahatların keçirilməsi. İnvestisiya siyasəti. Özəlləşdirmə və sahibkarlığın inkişafı. Aqrar və torpaq islahatları. Əhalinin rifahı və sosial müdafiəsi. Azərbaycan diasporu. Azərbaycan respublikasının xarici siyasətinin əsas istiqamətləri. 2003 və 2021-ci illərdə İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsi. Daxili siyasət. Respublikamızın sosial- iqtisadi inkişafı.<br>Aprel döyüşləri. Dəmir Yumruq siyasəti. Vətən müharibəsi və nəticələri. Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması. Vətən müharibəsində iştirak etmiş peşəkar Azərbaycan ordusu.<br>Azərbaycanın azad olunmuş ərazilərində bərpa və quruculuq işləri. Post-müharibə dövründə sosial-iqtisadi, siyasi və diplomatik addımların atılması və perspektivləri. Müzəffər Azərbaycan ordusnun qəhrəmanlıq salnamələri. Milli qəhrəmanların döyüş yolları. | |
| 13 | _,_, 26 | **Prezentasiya Qrupu 1**<br>Tələbələrin bir qrupu verilmiş mövzular əsasında təqdimat göstərəcəklər | |
| | _,_, 26 | **Prezentasiya Qrupu 2**<br>Tələbələrin bir qrupu verilmiş mövzular əsasında təqdimat göstərəcəklər | |
| 14 | _,_, 26 | **Prezentasiya Qrupu 3**<br>Tələbələrin bir qrupu verilmiş mövzular əsasında təqdimat göstərəcəklər | |
| | _,_, 26 | **Prezentasiya Qrupu 4**<br>Tələbələrin bir qrupu verilmiş mövzular əsasında təqdimat göstərəcəklər | |
| 15 | _,_, 26 | **Xüsusi Dərs: Şanlı Vətən müharibəsi və onun nəticələri**<br>Müzakirə formalı konfransa bənzər dərs | |
| | | **Yekunlaşdırıcı dərs və Final imtahanına hazırlıq** | |
| **Final İmtahanı** | | | |

**Təqdimat mövzuları**

1. Qobsutan qayaüstü təsvirləri və onların tarixi önəmi
2. Orta Əsrlərdə Azərbaycanda qadın tarixi şəxsiyyətlər
3. Azərbaycanın mədəniyyət paytaxtı – Şuşa şəhəri

4. Azərbaycanın qədim dövlətləri
5. Azərbaycan xalqının milli kimliyi
6. “Azərbaycanda islamaqədər dini inanclar
7. Qarabağın Xristian Abidələri
8. Babək Xürrəmi dövlət başçısı yoxsa üsyançı?
9. Atabək Şəmsəddin Eldəniz
10. Moğol işğalları və onun Azərbaycan üçün nəticələri
11. Əmir Teymur Kürəkən: İşğalçı yoxsa qüdrətli türk-müsəlman fatehi?
12. Qaraqoyunlu Qara Yusif Barani və onun Azərbaycan tarixində yeri
13. Səfəvi hökmdarları I Şah İsmayıl və I Şah Abbasın tarixi şəxsiyyət kimi müqayisəli təhlili
14. Nadir şah Əfşarın Azərbaycan tarixində yeri və rolu
15. Rusların Cənubu Qafqaza ilk müstəmləkə cəhdləri və onlara qarşı mübarizə
16. Səfəvilər dövlətinin tənəzzülü və nəticələri
17. Ağa Məhəmməd Şah Qacar: İşğalçı yoxsa Azərbaycanı birləşdimək istəyən türk müslman hökmadı?
18. Azərbaycanın Çar Rusiyası tərəfindən işğalı və onun nəticləri
19. Azərbyacan Xalq Cümhuriyyəti və onun Azərbaycan dövlətçilik tarixində yeri
20. Sovet işğalı və ona qarşı mübarizə
21. Azərbaycan ziyalılarına qarşı repressiyalar və onun nəticələri
22. Aprel döyüşləri və onun nəticələri
23. I Qarabağ müharibəsi və onun nəticələri
24. Vətən müharibəsi və onun nəticələri
25. Post-müharibə dövründə Azərbaycanda baş verən ən mühüm hadisələrin xronikası